Azərbaycan dili və ədəbiyyat tədrisi
2026 / Cild 72, Nömrə 3 / 46–57
https://doi.org/10.48445/f3179-3271-9388-r

Morfologiyanın tədrisində orfoepik vərdişlərin formalaşdırılması

Rəhilə Hümmətova [1]

XÜLASƏ

Ədəbi tələffüz normalarına yiyələnmək, eləcə də orfoepiya üzrə iş aparmaq imkanları dilçiliyin fonetika bölməsində olduğu kimi, morfologiya bölməsinin tədrisində də olduqca zəngin və çoxşaxəlidir. Təbii ki, bu imkanlardan səmərəli istifadə müəllimin qarşısında əsas tələbdir. Morfologiyanın tədrisi prosesində orfoqrafiya üzrə işləri orfoepiya ilə əlaqələndirmək üçün də geniş imkanlar vardır. Fonetikanın tədrisində praktik yolla öyrənilmiş bir sıra tələffüz qaydaları ayrı-ayrı nitq hissələrinə aid olan söz və şəkilçilərin deyilişində özünü göstərir. Morfologiya üzrə aparılan orfoepik iş həm fonetika təlimində praktik yolla öyrənilmiş bir sıra tələffüz qaydaları üzrə mənimsənilən bilik və bacarıqların avtomatlaşmasına, həm də şəkilçilərin tələffüzünə aid yeni bilik və vərdişlərin qazanılmasına xidmət edir. İstər ibtidai, istərsə də yuxarı siniflərdə yalnız dil qaydaları deyil, bütövlükdə Azərbaycan dili tədris olunur. Buna görə də dil dərslərində çoxcəhətli fənnin bütün sahələri əhatə olunur və orfoqrafiya, orfoepiya, leksikologiya, qrammatika və s. arasında sıx əlaqə yaranır. Dil təlimində dilin vahid strukturuna əməl edilməsi prinsipi öz sözünü deyir. Yəni hər bir qrammatik mövzunun tədrisi zamanı müvafiq leksik iş aparılır, orfoqrafiya və orfoepiyaya aid konkret işlər öz həllini tapır və gələcək bölmə üçün (sintaksis) zəmin hazırlanır.

AÇAR SÖZLƏR

morfologiya, ədəbi tələffüz, orfoepiya

MƏQALƏ TARİXÇƏSİ

Göndərilib: 03.04.2026
Qəbul edilib: 12.08.2026

[1]Filologiya üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan
https://orcid.org/0000-0003-2521-6361 | rahilahummetova@gmail.com

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Teaching of Azerbaijani Language and Literature
2026 / Volume 72, Number 3 / 46–57
https://doi.org/10.48445/f3179-3271-9388-r

Formation of Orthoepic Habits in The Teaching of Morphology

Rahila Hummatova [1]

ABSTRACT
The opportunities for mastering literary pronunciation norms, as well as working on orthoepy, are quite rich and extensive in the teaching of morphology, as well as in the phonetics section of linguistics. Naturally, the effective use of these opportunities is the main requirement for the teacher. In the process of teaching morphology, there are also wide opportunities to connect work on spelling with orthoepy. A number of pronunciation rules learned in practice in the teaching of phonetics are manifested in the pronunciation of words and suffixes belonging to individual parts of speech. Orthoepic work on morphology serves both to automate the acquired knowledge and skills on a number of pronunciation rules learned in practical phonetics training, and to acquire new knowledge and habits related to the pronunciation of suffixes. Both in primary and higher grades, not only the rules of the language are taught, but the Azerbaijani language as a whole. This poses the task of covering its multifaceted areas in language lessons. Therefore, in language lessons, a close connection is created between orthography, orthoepy, lexicology, grammar, etc. And again, the principle of adhering to the unified structure of the language in language teaching speaks for itself. That is, when each grammatical topic is taught, corresponding lexical work is carried out at the same time, specific tasks related to orthography and orthoepy are solved, and the groundwork is prepared for the future section (syntax).

KEYWORDS
morphology, literary pronunciation, orthoepy

ARTICLE HISTORY
Received: 03.04.2026
Accepted: 12.08.2026

[1]Doctor of Philosophy in Philology, Associate Professor, Azerbaijan State Pedagogical University. Azerbaijan
https://orcid.org/0000-0003-2521-6361 | rahilahummetova@gmail.com

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Giriş

Tədqiqat işinin mövzusu. Azərbaycan dili qrammatikası morfologiya və sintaksis şöbələrindən ibarətdir. Morfologiya yunan mənşəli söz olub "morphe" (forma), "loqos" (elm, təlim), yəni "forma haqqında elm, təlim" deməkdir. Morfologiya sözlərin geniş mənada qrammatik tərkibini, nitq hissələrini öyrənməklə yanaşı, eyni zamanda şagirdlərdə düzgün nitq bacarığı və ədəbi dilin normalarına riayət etmək vərdişlərini də formalaşdırır. Fonetika, leksikologiya bölmələri ilə əks əlaqə qurur, sintaksis üçün, onun ayrı-ayrı mövzularının daha dərindən mənimsədilməsi üçün real imkanlar açır. Morfologiyanın tədrisi prosesində nitq hissələrinin tələffüz qaydaları haqqında elmi-nəzəri məlumat verilir, eyni zamanda verilmiş qaydaların şüurlu dərk edilməsi üçün müxtəlif səpkili çalışmalarla istifadə olunur. Müxtəlif üsullarla möhkəmləndirilmiş qaydalar şagird nitqinə tətbiq olunaraq vərdişə çevrilir. Morfologiya üzrə aparılan orfoepik iş həm fonetika təlimində praktik yolla öyrənilmiş bir sıra tələffüz qaydaları üzrə mənimsənilən bilik və bacarıqların avtomatlaşmasına, həm də şəkilçilərin tələffüzünə aid yeni bilik və vərdişlərin qazanılmasına xidmət edir. Tədqiqat işinin mövzusu bu cür problematik məsələlərin inteqrativ əsasda tədrisinə, morfologiya bölməsində orfoepik vərdişlərin formalaşdırılmasına həsr edilmişdir.

Mövzunun aktuallığı. Belə bir kəlam var: "Gözəl nitq şeir kimi ovsunlayır". Gözəl şeir insan qəlbini ovsunladığı, onun duyğularını oyatdığı kimi, aydın, təmiz nitq də onu dinləyənlərə eyni dərəcədə təsir edir. Hər bir insanın ən gözəl keyfiyyətlərindən biri onun zəngin nitq mədəniyyətinə malik olmasıdır. Yüksək nitq mədəniyyəti insanın ümumi inkişafında müstəsna əhəmiyyət daşıyır. Məzmunca dolğun, formaca zəngin nitq fikrin təsirli ifadə olunmasına xidmət göstərir. Fikir və düşüncələrin təsirli ifadəsi ədəbi tələffüz normalarına riayət etməklə yüksək nitq mədəniyyətinə sahib olmaqdan başlayır. Bu baxımdan morfologiyanın tədrisi orfoepik vərdişlərin formalaşmasında və vərdişə çevrilməsində xüsusi çəkiyə malikdir. Tədrisin inteqrativ əsasda təşkili mövzunun aktuallığını və ümumtəhsil məktəblərinin qarşısında duran vəzifənin əhəmiyyətini bir daha vurğulayır.

Tədqiqatın əsas sualları:

1. İnteqrativlik nədir?
2. Əsas nitq hissələri ilə bağlı hansı orfoepik normalar müəyyən edilib?
3. İsimlərdə cəmlik anlayışının morfoloji əlaməti ilə feillərdə III şəxsin cəminin morfoloji göstəricisi olan *-lar,-lər* şəkilçilərini necə fərqləndirmək mümkündür?
4. Köməkçi nitq hissələrinin, xüsusən qoşmaların tədrisində orfoepik vərdişlər hansı metodlarla möhkəmləndirilir?

Tədqiqatın praktik əhəmiyyəti. Şagirdlərə düzgün orfoepik vərdişlər aşılamaq, onların şifahi nitq bacarıqlarını inkişaf etdirməklə yüksək nitq mədəniyyətinə yiyələndirmək

dilçiliyin, o cümlədən morfologiyanın tədrisi qarşısında duran mühüm vəzifələrdəndir. Dil ünsiyyət vasitəsi, nitq isə ünsiyyət prosesidir. Dil obyektivdir və o danışanla əlaqəli olaraq mücərrədləşir, təkrarlanır. Hər bir danışıq spesifik, bənzərsiz və hamı tərəfindən qəbul edilən ifadəli əlamətlərdən ibarətdir. Orfoepik normalarla müşayiət olunan mədəni nitqin formalaşdırılması üçün istifadə edilən pedadoji vasitələr mövzunun praktik əhəmiyyətini xüsusilə qabarıq göstərir. Tədqiqat işindən müəllim, dissertant və tələbələr istifadə edə bilərlər.

Metodlar

Mövzuda qoyulan məqsədin daha aydın ifadəsi üçün düzgün metoddan istifadə etmək vacib amillərdəndir. Tədqiqat işində müqayisə, təsviri, linqvistik eksperiment, linqvistik təhlil metodlarından istifadə edilmişdir. Oxşar dil faktları və hadisələrin fərqləndirilərək səciyyəvi cəhətlərinin müəyyənləşdirilməsində müqayisə, linqvistik eksperiment üsulu olduqca vacibdir.

Nəticələr

Morfologiya üzrə aparılan orfoepik iş həm fonetika təlimində praktik yolla öyrənilmiş bir sıra tələffüz qaydaları üzrə mənimsənilən bilik və bacarıqların avtomatlaşmasına, həm də şəkilçilərin tələffüzünə aid yeni bilik və vərdişlərin qazanılmasına xidmət edir; İnteqrativ əsaslarda tədris edilən mövzuların hər biri şagirdlərin ədəbi tələffüz normalarına dərindən yiyələnmələrinə şərait yaradır; Nitq inkişafı məsələlərinin praktik həlli, əsasən, dil və nitq arasındakı əlaqənin anlaşılmasından asılıdır; Morfologiya bölməsinin orfoepiya ilə inteqrativ tədrisini reallaşdıran həm şəkilçilər, onların tələffüzü və yazılışı, vurğu qəbul edib-etməməsi, omonimliyi, həm də nitq hissələrinin öz qrammatik təbiətidir.

Müzakirə

Etiraf edək ki, cəmiyyətimizdə fikirlərini səlis ifadə edə bilməyən, gözəl nitqə sahib olmayan insanlara da rast gəlmək mümkündür. Bəs mədəni nitqin inkişafına hansı amillər mane olur? Bəzi insanlar nəinki aydın danışmaq, ümumiyyətlə, danışmaqda çətinlik çəkirlər. Bunun təməli çox vaxt uşaqlıqdan qoyulur. Günümüzün real mənzərəsi göz önündədir, əksər hallarda ailədə, məktəbdə az ünsiyyət qurulur. Bəzən məktəbdə öz fikrini düzgün ifadə edə bilməyən şagird məktəb yoldaşları və hətta müəllim tərəfindən qınanır, tənbeh edilir. Nəticədə şagird artıq danışmaqdan çəkinir. Bunun üçün müəllimlər şagirdlərin öz fikirlərini çəkinmədən ifadə etmələrinə şərait yaratmalı, nitqin düzgün formalaşmasına kömək etməlidirlər. Bunun üçün ədəbi tələffüz normalarına yiyələnmək zəruridir. “Fikir və düşüncələrin daha təsirli ifadə edilməsi üçün zəruri tələblərdən biri olan orfoepiya da nitq mədəniyyətinin ayrılmaz və ən vacib ünsürüdür” (Qurbanov, 2003).

Ədəbi tələffüz normalarına yiyələnmək, eləcə də orfoepiya üzrə iş aparmaq imkanları dilçiliyin fonetika bölməsində olduğu kimi, morfologiya bölməsinin tədrisində də olduqca zəngin və genişdir. Təbii ki, bu imkanlardan səmərəli istifadə etmək başlıca tələb kimi müəllimin qarşısında durur. Morfologiyanın tədrisi prosesində orfoqrafiya üzrə işləri orfoepiya ilə əlaqələndirmək üçün də geniş imkanlar vardır.

" Təcrübə göstərir ki, qrammatikanı, dil hadisələrini yaxşı mənimsəyən şagird yazı qaydalarına da düzgün əməl edir" (Abdullayev, 2008).

Fonetikanın tədrisində praktik yolla öyrənilmiş bir sıra tələffüz qaydaları ayrı-ayrı nitq hissələrinə aid olan söz və şəkilçilərin deyilişində özünü göstərir. "Morfologiyanın obyekti sözdür. Morfologiyanı, hər şeydən əvvəl, müxtəlif qrammatik mənaları ifadə edən müxtəlif qrammatik şəkillər (formalar) maraqlandırır" (Hüseynzadə, 2007). Həmin qrammatik formalar morfologiyanın tədrisində tələffüz üzrə aparılan işlərin əsasında dayanır. Söz yaradıcılığı, sözün tərkibi və nitq hissələrinin tədrisi prosesində müəllim yeri gəldikcə yazılışı və tələffüzü fərqlənən sözlər üzərində xüsusi iş aparmalıdır. Belə ki, hər bir mövzunun tədrisi zamanı müəllim orfoqrafik-orfoepik cəhətdən şagirdlər üçün çətinlik törədən sözlərin morfoloji və ya fonetik cəhətdən təhlilini təşkil edir. Həmin sözlərin düzgün tələffüzü üzrə məşq-təmrinlər, çalışmalar və s. üzrə iş aparılır. Müəllim ən çox öyrədilməsi məsləhət görülən orfoepik normaları tədris prosesində həyata keçirməlidir: Feillərdə ikinci şəxsin cəminin şəkilçisi həm *-sınız*[4], həm də *-sız*[4] şəklində tələffüz olunur; Saitlə bitən feillərə indiki və qeyri-qəti gələcək zamanın inkarında sait düşür: yazmayıram (yazmıram); yazmayaram (yazmaram) və s.; Feilin xəbər şəklinin qəti gələcək zamanında l şəxsin təki iki cür tələffüz olunur: (yazacağam), (yazacam); Feilin nəqli keçmiş zamanında II şəxsin təkində "ş" samiti tələffüz edilmir: [oxumuşsan], [oxumusan] və s.; A, "ə" saiti ilə bitən çoxhecalı sözlərə "y" bitişdirici samiti ilə başlayan qrammatik şəkilçilər (-ya,-yə; -yır,-yir,-yur,-yür,-yar,-yər; -yan, -yən; -yacaq,-yəcək; -yası-yəsi; -yaraq,-yərək və s.) qoşulduqda bu saitlər özündən əvvəlki hecaya uyğun qapalı sait ı[4] kimi tələffüz olunur: almayacaq (almıyacax); anaya (anıya); bağlayar (bağlıyar); başlayar (başdıyar); gözləyəsidir (gözdüyəsidi); kölgəyə (kölgüyə); oxşayan (oxşuyan); söyləyincə (söylüyüncə) və s.

Müəllim düzgün tələffüz vərdişləri üzrə aparılacaq işi müəyyənləşdirməyi bacarmalıdır. Morfoloji şəraitdə sözlərə qoşulan şəkilçilərlə bağlı söz sonunda və həmçinin şəkilçilərin tələffüzündə bir sıra fonetik dəyişikliklər baş verir ki, bu dəyişikliklər morfologiya ilə bağlı orfoepik normalar əmələ gətirir. "Morfoloji şəraitdə tələffüz dedikdə sözlərə şəkilçilərin qoşulması ilə yaranmış tələffüz nəzərdə tutulur" (Xəlilov, 2013).

Morfologiyanın tədrisində lüğəvi şəraitdə tələffüz təkrarlanmaqla şəkilçilərin tələffüzünə aid yeni bilik, bacarıq və vərdişlərin formalaşmasına imkan yaratmaq mümkündür. "Lüğəvi şərait dedikdə, əsasən səslərin söz daxilindəki yeri və məqamı ilə əlaqədar olaraq necə tələffüz edilmə qayda-qanunları nəzərdə tutulur" (Dəmirçizadə, 2007).

İstər ibtidai sinflərdə, istərsə də yuxarı siniflərdə yalnız dil qaydaları deyil, bütövlükdə Azərbaycan dili tədris olunur. Bu isə dil dərslərində fənnin çoxcəhətli sahələrini əhatə etmək vəzifəsini qarşıya qoyur. Odur ki, dil dərslərində orfoqrafiya, orfoepiya, leksikologiya, qrammatika və s. arasında sıx əlaqə yaranır. Morfologiyanın tədrisində fonetik biliklər yada salınmalı, şagirdlərdən sözlərin səs, hərf tərkibini göstərmək, orfoepik tələffüzü müəyyənləşdirmək tələb olunmalıdır: *Sonu samitlə bitən sözlərə (isimlərə: qanad, bulud, kənd və s.) saitin əlavə edilməsi və necə deyilişinin izahı; Tələffüzü və yazılışı arasında fərq olan sözlərin (söyüt-söyüd, bulut-bulud, dəfdər-dəftər, taxda-taxta, bosdan-bostan və s.) qarşı-qarşıya yazılaraq tutuşdurulması, dəyişən samitin altından xətt çəkilməsi, tələffüzünün aydınlaşdırılması; İsimlərdə (palı.., sü.., qali.., uşa..lar, ota..ı, balı..a və s.) nöqtələrin yerinə uyğun gələn samitin (t-d, p-b, q-ğ) artırılaraq "Belə deyilir", "Belə yazılır" başlıqları altında qruplaşdırılması; İsimlərin (dəstə, usta və s.) yazılışına əsasən tələffüzünün şagirdlər tərəfindən müəyyənləşdirilməsi və s.*

Morfologiyanın tədrisinin düzgün tələffüzlə əlaqələndirilməsi hər bir mövzu üzrə: hal, mənsubiyyət, kəmiyyət, xəbərlik kateqoriyalarının və s. təlimində mümkündür. Eləcə də digər nitq hissələrinin tədrisində verilən elmi-nəzəri biliklər çalışmalarla möhkəmləndirilərək nitq praktikasında tətbiq edilir. İnteqrativ əsaslarda tədris edilən mövzuların hər biri şagirdlərin ədəbi tələffüz normalarına dərindən yiyələnmələrinə şərait yaradır. İsimlərdə cəmlik anlayışı tədris ediləndən sonra şagirdlər feillərdə şəxs kateqoriyasının III şəxsin cəminin morfoloji əlaməti olan *-lar, -lər* şəkilçilərinin eyni fonetik tərkibdə olduğunu görür və əvvəlki bilikləri xatırlayırlar. Lakin çox zaman həmin şəkilçilərin fərqlərini dərk etmir, onları eyniləşdirirlər. Morfoloji təhlildən istifadə edərək onlar arasındakı fərqi müəyyənləşdirməyə çalışaq: *Oğullar atalarını bəyənmirlər.* Hər bir sözdə eyni fonetik tərkibə malik olan şəkilçi morfemlər işlədilmişdir. *Oğullar* -isimdir; "kim" sualına cavab verir; sadədir; ümumidir; cəmdədir; adlıq halındadır; sintaktik vəzifəsi mübtədadır; *atalarını* –isimdir; kimi sualına cavab verir; sadədir; cəmdədir; mənsubiyyət şəkilçisi qəbul edib; təsirlik halındadır; sintaktik vəzifəsi müəyyən vasitəsiz tamamlıqdır; *bəyənmirlər* –feildir; nə edirlər sualına cavab verir; sadədir; təsirlidir; inkardadır; məlum növdədir; xəbər şəklinin indiki zamanındadır; III şəxsin cəmindədir; sintaktik vəzifəsi feili xəbərdir. Eyni fonetik tərkibə malik olan şəkilçi birinci və ikinci sözlərdə cəmlik yaradır, əşyanın çoxluğunu (oğullar, atalarını qrammatik cəhətdən əşya məzmununu bildirir), axırıncı isə feillərdə III şəxsin cəmini ifadə edir. Məlumdur ki, feilin təsriflənən formaları şəxsə və kəmiyyətə görə dəyişir. *Bəyənmirlər* feilindəki *-lər* şəkilçisi III şəxsin cəmini ifadə etdiyi kimi, xəbərin mübtəda ilə uzlaşma əlaqəsinin (kəmiyyətə və şəxsə görə) də əsas morfoloji göstəricisidir. Bu zaman onları cəm şəkilçisi adlandırmaq olmaz. Bu şəkilçi isimlərə qoşularaq çoxluq anlayışı ifadə edərkən *(-dar,-dər), (-nar,-nər), (-rar,-rər), (-lar,-lər)* şəklində tələffüz olunmalıdır: *qızlar (qızdar), qatarlar (qatarrar), oğlanlar (oğlannar), sahillər (sahillər) və* s. " III şəxs sonluğu ilə işlənən feillərin tələffüzündə isə *-lar (-lər)*

şəkilçisi dəyişikliyə uğramır, özündən əvvəlki səsi (indiki və qeyri-qəti gələcək zaman şəkilçilərinin son səsi olan "r") öz məxrəcinə uyğunlaşdırır, yəni irəli və tam assimilyasiya hadisəsi baş verir: *gülürlər (gülüllər), alarlar (alallar), oynayırlar (oynullar)* (Hümmətova, 2019). Digər fərq isə ondan ibarətdir ki, *-lar,-lər* isimlərə qoşularaq əşyanın çoxluğunu bildirir və bu zaman vurğu *-lar,-lər* şəkilçisində saitin üzərinə düşür: *qızla`r, qələmlə`r, evlə`r, kitabla`r* və s. Lakin -lar,-lər feillərdə III şəxsə aid olub şəxsin çoxluğunu bildirərkən vurğu qəbul etmir: *almı`şlar; alı`rlar; alaca`qlar; ala`rlar* (şühudi keçmiş zamanda vurğu qəbul edir: aldıla`r) və s. Morfoloji şəraitdə sözlərə qoşulan şəkilçilər sözün sonuncu səsinə, bəzən isə sözün son səsi şəkilçinin ilk səsinə təsir edərək müəyyən fonetik dəyişikliyə səbəb olur ki, buradan da morfoloji şəraitlə əlaqədar olan orfoepik normaların meydana çıxmasına şərait yaradır.

Azərbaycan dili dərsliklərində dil qaydalarının möhkəmləndirilməsi və şagird nitqində tətbiqini nəzərdə tutan çalışmaların, demək olar ki, əksəriyyəti mövzuların inteqrativliyinə xidmət göstərir. Nümunə üçün VI sinif dərsliyindəki 1-2 çalışmaya nəzər yetirək. *Çalışmada (feil bəhsi üzrə ümumiləşdirici təkrar, s.134, çal.4) verilmiş bayatını tələffüz qaydalarına uyğun oxumaq tələbi qoyulur: "Dərd yaxamı tanıyır, Dərdə salıb sınayır. Ovçu vurub sinəmdən, Dəymə, yaram qanayır.* Və yaxud: səh.156, çal.5-də tələb olunur: *Tələffüz formasında verilmiş sözləri düzgün yazın və hansı nitq hissəsi olduğunu müəyyənləşdirin. 1. Ananın (həyəcannan) ürəyi əsdi. 2. Ana (həyəcannan) oğlunu səslədi. 3. Stolun üstündə (qələmnən) başqa heç nə yox idi. 4. Stolun üstündə [qələmnən] çəkilmiş bir şəkil var idi"* (6-cı siniflər üçün Azərbaycan dili (tədris dili), 2021).

Şübhəsiz, morfologiya bölməsində bu cür çalışmaların verilməsi hər bir dil qaydasının şüurlu dərk etdirilməsi ilə yanaşı, şagirdlərdə ümumi dil və nitq bacarıqları formalaşdırır. Bu da gələcəkdə şagirdlərin yüksək nitq mədəniyyətinə sahib olmalarına yol açır. Çalışmalar üzərində müstəqil işləyən şagird müşahidə etmək, müqayisə aparmaq, faktları, oxşar hadisələri təhlil süzgəcindən keçirmək və düzgün nəticəyə gəlmək bacarığına sahib olur. Oxşar faktların müqayisəsində tələffüzün əsas elementlərindən olan vurğunun köməyi ilə düzgün nəticəyə gələn şagird çətin ki, onları qarışıq sala. "Oxşar dil faktları morfologiya bölməsinin əksər mövzularını əhatə edir və bu da öz növbəsində fəndaxili inteqrasiyaya geniş meydan açır. Məsələn, "Qoşma"nın tədrisində dilçiliyin fonetika bölməsi ilə inteqrasiyasız ötüşmək mümkün deyil. Çünki "qoşmaların bir qismi heç bir vurğuya malik olmur, bir qismi isə zəif, yarımvurğuya malik olur" mühakiməsi fonetika bölməsi ilə fəndaxili inteqrasiyanın zəruriliyinə şərait yaradır" (Hümmətova, 2018). Vurğu haqqında əldə edilmiş nəzəri məlumatlar xatırlanır, möhkəmləndirilir və veriləcək elmi biliyin şüurlu şəkildə dərk edilməsi yolları aydınlaşır. Bu məqsədlə heca vurğusu, Azərbaycan dilində vurğunun yeri, onun növləri ilə bağlı diskussiya yaratmaq mümkündür. Həmçinin şəkilçilərdə vurğu məsələsi də yenidən təkrar obyektinə çevirilməli, vurğu qəbul etməyən şəkilçilərin də olduğu konkret faktlar və üsullarla nümayiş etdirilməlidir. Daha sonra

qoşmaların tələffüzü və orfoqrafiyası haqqında söhbət açarkən yenə də fonetika bölməsi, orfoqrafiya və orfoepiya ilə qarşılıqlı əlaqə qurmaq lazım gəlir. Xüsusən *ilə (-la,-lə)* qoşmasının tələffüzü, vurğu qəbul etməməsi müqayisəli şəkildə çatdırılmalıdır. *İlə* qoşmasının şəkilçi forması (-la, -lə) isimdən feil düzəldən *-la, -lə* şəkilçisi ilə omonimdir. Şagirdlər sözün quruluşu ilə leksik şəkilçilər haqqında ilkin biliklərə malik olduğu üçün qoşma ilə şəkilçinin omonimliyini müqayisə edərək mənimsədə bilərik: *Hadisələr getdikcə aydınlaşmağa, lilli su kimi çöküb durulmağa başladı* (İ. Şıxlı). *Bundan sonra anamın günü ah-vayla keçməyəcəkmi?* (İ. Şıxlı). Birinci cümlədə "-la" adlardan feil düzəldən şəkilçidir, vurğu qəbul edir və sözdə son heca olduğuna görə vurğu onun üzərinə düşür, [başdadı] şəklində tələffüz olunur. İkinci cümlədə isə -la ilə qoşmasının şəkilçiləşmiş formasıdır, [ah-vaynan] şəklində tələffüz olunur və vurğu qəbul etmir. Hər iki cümlədə -la vahidlərinin müqayisəsi nəticəsində şagirdlər belə qənaətə gəlir ki, -la qoşma olduqda vurğu qəbul etmir, onu asanlıqla *ilə* şəklinə salmaq olur, sözün quruluşuna təsir etmir, onun digər sözlərlə əlaqələnməsinə kömək edir və sözə yeni məzmun qatır; qoşulduğu sözlə birlikdə suala cavab verir, cümlə üzvü vəzifəsində çıxış edir (qoşulduğu sözlə birlikdə); -la əgər leksik şəkilçidirsə, vurğu qəbul edir, sözün quruluşunu, hətta aid olduğu nitq hissəsini dəyişə bilir. Beləliklə, qoşma və şəkilçinin müqayisəsi nəticəsində şagirdlər həm vurğu ilə, leksik şəkilçilərlə bağlı biliklərini təkrarlayır, həm də qoşmanın tələffüzü ilə bağlı nəzəri bilikləri dərk etməkdə çətinlik çəkmirlər. *İlə* qoşması saitlə bitən sözlərdən sonra *(-ynan), (-ynən),* samitlə bitən sözlərdən sonra *(nan), (nən)* şəklində tələffüz olunur. Folklor nümunələrində, aşıq poeziyasında ilə (-la,-lə) qoşmasının canlı danışıqda olduğu kimi, ədəbi tələffüz transkripsiyasına uyğun və yaxud çox yaxın ifadə formaları üstünlük təşkil edir:

Dağlarının daşıynan,
Torpağıynan, daşıynan.
Yar deyib əridərəm,
Gözlərimin yaşıynan
(Elat bayatıları).

Üçün qoşması samitlə bitən sözlərə qoşulduqda [çün], saitlə bitən sözlərlə işləndikdə isə [yçün] şəklində tələffüz olunur:

Telli isə ona fikir vermədən
Pək maraqlı bir hekayə oxuyur.
Özü üçün anlamadan, görmədən
Xəyalında bir aşiyan toxuyur
(M. Müşfiq).

Çocuq insanlığın əbədiyyəti,
Şərəfli torpağa şərəf qüvvəti!
Çocuq açılmamış bir dəfinədir,
İnsan dövlət üçün bir xəzinədir
(M.Müşfiq).

Birinci bənddə *üçün* qoşması saitlə bitən sözə qoşulduğundan "y" bitişdirici samiti əlavə olunur və [özüyçün] şəklində tələffüz olunur. İkinci bənddə isə adlıq halda olan *dövlət* sözünə qoşulmuşdur və [dövlətçün] şəklində tələffüz olunur. Yeri gəlmişkən, onu qeyd edək ki, morfologiya bəhsi üzrə keçilən dərslərin ədəbi növzularla əlaqələndirilməsi normativ tələffüz vərdişlərinin aşılanmasında xüsusi əhəmiyyət kəsb edir. "Yazılışı tələffüzündən fərqli olan bəzi qrammatik kateqoriyaların deyilişi ədəbi-bədii mətnlər üzərində nümayiş etdirildikdə şagirdlər onları şüurlu dərk edir. Ədəbi tələffüz normalarına uyğun danışmaq və oxumaq onlarda əməli nitq vərdişlərinə çevrilir" (Balıyev, Balıyev, 2014) Ədəbiyyat dərsində ədəbi tələffüz üzrə iş müəyyən çərçivədə qalmamalı, şagirdin deyiliş-yazılış dilemmasını müzakirə etməyə vaxtı qalmalıdır. Müəllim bilməlidir ki, nitq inkişafı məsələlərinin praktik həlli dil və nitq arasındakı əlaqənin anlaşılmasından asılıdır. Hər sözə sinonim axtarmaq hələ dili zənginləşdirmək, yoruculuqdan qurtarmaq deyil.

Morfologiya bölməsinin orfoepiya ilə inteqrativ tədrisini reallaşdıran həm şəkilçilər, onların tələffüzü və yazılışı, vurğu qəbul edib-etməməsi, omonimliyi, həm də nitq hissələrinin öz qrammatik təbiətidir. İnteqrasiyanın yaradılması mövzuların daha dərindən mənimsənilməsi və uzun müddət yadda saxlanılması üçün mühüm amillərdəndir. Ümumiyyətlə, ənənəvi təlimdən fərqli olaraq, fəal təlimdə inteqrativlik ümumpedaqoji prinsip hesab edilir və təlimdə nəzərə alınması mühüm şərtlərdəndir. "Vaxtında və məqsədə söykənən inteqrasiya təlim prosesində dilə bütöv bir sistem kimi yanaşmağı, hər bir mövzunun zəncirin qırılmaz həlqələri olduğu fikrini dərk etməyi tələb edir. Əgər zəncirin həlqələri bir-biri ilə möhkəm və daha sıx bağlanmazsa, onun tez-tez qırılmaq ehtimalı yüksəkdir" (Hümmətova, 2018).

İsimlərdə olduğu kimi, digər nitq hissələrinin, xüsusən feillərin, say və zərflərin, qoşma və ədatların tədrisi prosesində orfoepik normaların mənimsədilməsi üçün geniş mövzudur. Məsələn: *ki, da, də* morfemlərinin şəkilçi, bağlayıcı və ya ədat olduğunu müəyyənləşdirərkən onların tələffüzünün və yazılış formasının mühüm əhəmiyyəti var. Məqsədəuyğun seçilmiş təlim texnologiyalarından istifadə etməklə (linqvistik eksperiment, alqoritmik məsələ, venn diaqramı və s.) onların yazılış və tələffüzündəki fərqləri və qrammatik mənasını aydınlaşdırmaq mümkündür. Onların omonimliyinin izahı üçün "linqvistik eksperiment" qoya bilərik:

Zərnigar xanım elə qışqırdı ki, Salatın özünü itirdi
(İ. Şıxlı).

Dünənki hadisə onun gələcəyini alt-üst etdi.
Könül, sən ki düşdün eşqin bəhrinə
Narın çalxan, narın silkin, narın üz
(Aşıq Ələsgər).

Bu nümunələrdə köməkçi nitq hissələri həm bir-biri ilə, həm də şəkilçilərlə omonimlik daşıyır.

Nəticə

Birinci cümlədə "ki" vahidi qrammatik mənasına görə bağlayıcıdır, aydınlaşdırma tabelilik bağlayıcısıdır və tabeli mürəkkəb cümlənin tərəflərini bir-birinə bağlamağa xidmət edir. "Ki" bağlayıcısını cümlədən çıxarıb vergüllə əvəz etsək, onun mənasında heç bir dəyişiklik yaranmaz. İkinci cümlədə *dünən* zaman zərfinə qoşulmuş -ki vahidi leksik şəkilçidir və yeni söz yaradır. Düzəltmə sifət əmələ gətirir və semantikasında zaman məzmunu vardır, vurğu onun üzərinə düşür. Əgər -ki şəkilçisini sözdən atsaq, uyğunsuzluq yaranar və cümlənin mənası anlaşılmaz. *Ki* vahidinin sözə bitişik yazılması da şagirdlərə onun şəkilçi olduğunu fərqləndirməyə kömək edir. Bu cümlədə *ki* vahidini təhlil etməklə biz eyni zamanda söz yaradıcılığı ilə də inteqrasiya yaratmış oluruq. Şeirdə isə *ki* qüvvətləndirici mənaya malik olan ədatdır. Əgər bu cümlədə *ki* vahidini cümlədən çıxarsaq, heç bir semantik dəyişiklik olmaz, yalnız fikrin ifadə tərzi əvvəlkinə nisbətən zəifləyər. *Ki* ədatını şəkilçi və bağlayıcıdan fərqləndirən bir cəhət də məntiqi vurğunu özündən əvvəlki sözün (sən) üzərinə atmasıdır. Beləliklə, şəkilçilərlə köməkçi nitq hissələrinin omonimliyinin müzakirəsi təlimin vahid strukturunun gözlənilməsi prinsipinə əməl etməklə inteqrativ əsaslı tədrisə geniş imkanlar yaradır. Şagirdlər vurğu, şəkilçilərlə bağlı biliklərini yada salır, eyni zamanda bağlayıcı və ədat haqqında öyrəndiklərini möhkəmləndirirlər. Göründüyü kimi, morfologiyanın tədrisində müşahidədən, düzgün tələffüz üzrə işlərin orfoqrafiya ilə müqayisəli tədrisindən istifadə etməklə şagirdlərin morfologiya, orfoepiya və orfoqrafiya üzrə bilik və bacarıqlara yiyələnməsinin səmərəliliyini təmin etmək olur. Qrammatika təlimi böyük ümumtəhsil əhəmiyyətə malik olmaqla, həm də şagirdlərin ədəbi tələffüz normalarını mənimsəmələrini təmin edir. Qrammatik qaydaların bir çoxu eyni zamanda orfoepik normalar olduğundan bu vəzifə xeyli asanlaşır. Məsələn, isimlərdə sonu ***a,ə*** saiti ilə bitən sözlərə yönlük; sonu *m,n* samitləri ilə bitənlərə çıxışlıq; sonu *n, r, z, t, d,s* samitləri ilə bitən isimlərə cəmlik yaradan *-lar,-lər* şəkilçiləri; isimlərə artırılaraq müxtəlif məzmun yaradan *-lıq, -lik ,-luq, -lük* şəkilçiləri; sifət düzəldən *-lı, -li, -lu, -lü* şəkilçiləri *n, d, r, s, t, z* samitləri ilə bitən sözlərə artırıldıqda assimilyasiya hadisəsi baş verir. Adlar qrupuna artırılan *-dır, -dir, -dur, -dür* xəbərlik şəkilçilərində isə eliziya hadisəsi baş verir: anaya (anıya), dərəyə (dəriyə), oğlandan (oğlannan), əmimdən (əmimnən), gəlinlər (gəlinnər), qatarlar (qatarrar), dənizlər (dənizdər), atlar (atdar), səslər (səsdər), daşlıq (daşdıx), qaranlıq (qarannıx), pərtlik

(pərtdix`), uzunluq (uzunnux), atlı (atdı), canlı (cannı), qarlı (qarrı), varlı (varrı), səsli (səsdi), duzlu (duzdu), söyüdlü (söyüddü), adamdır (adamdı), qışdır (qışdı) və s. (Yeni orfoepiya normaları, 2021).

Onu qeyd edək ki, orta ümumtəhsil məktəblərinin Azərbaycan dili dərsliklərində orfoepik qaydalar didaktik əsasda qurulur. Qayda qısa, aydın, uşaqların yaş xüsusiyyətinə uyğun seçilməli, rəngarəng çalışmalarla müşayiət olunmalıdır. Şagirdlərə düzgün orfoepik vərdişlər aşılamaq, onların şifahi nitq bacarıqlarını inkişaf etdirməklə nitq mədəniyyətinə yiyələndirmək dilçiliyin, o cümlədən morfologiyanın tədrisi qarşısında duran mühüm vəzifələrdəndir. Dil ünsiyyət vasitəsidir, nitq isə ünsiyyət prosesidir. Dil danışanla əlaqəli olaraq mücərrədləşir, təkrarlanır və obyektivdir. Hər bir danışıq spesifik, bənzərsiz və hamı tərəfindən qəbul edilən ifadəli əlamətlərdən ibarətdir. Hamı tərəfindən qəbul edilən, orfoepik normalarla müşayiət olunan şagird nitqinin formalaşdırılması vəzifəsini yerinə yetirmək üçün müəllim həm didaktikanın müəyyən etdiyi metodik yollardan, həm də fəal təlim priyomlarından istifadə etməlidir. O, şagirdlərdə morfoloji qaydaların tədrisi ilə əlaqəli düzgün orfoepik vərdişlər yaratmaq üçün Azərbaycan dili orfoepiyasının prinsiplərini dərindən bilməli, digər tərəfdən dərsdə orfoepiyaya aid bilik, bacarıq və vərdişlərin verilməsinə nail olmaq üçün çalışmalar sistemindən, əyani vəsaitlərdən, tapşırıqlardan və interaktiv təlim üsullarından istifadəyə fikir verməlidir. Bunları aşağıdakı kimi göstərmək olar: ədəbi tələffüz üzrə cədvəllər; orfoepik çalışmalar; morfoloji təhlil; İKT-dən istifadə və s.

Tək-tək nümunə verməklə, müəyyən çalışmaların köməyi ilə həmin qaydaların əhatə etdiyi sözlərin düzgün tələffüzünü öyrətmək mümkün deyildir. Orfoepik qaydaların mənimsədilməsi ibtidai siniflərdən başlayaraq yuxarı siniflərdə də kompleks şəkildə, ardıcıl, şüurlu olaraq davam etdirilməli, yalnız Azərbaycan dili dərsləri ilə məhdudlaşdırılmamalıdır. Dilçiliyin bütün bölmələri, xüsusən morfoloji qaydaların tədrisi prosesində orfoepiya üzrə iş aparmaq imkanları olduqca genişdir. Biz sadəcə bəzi nümunələrlə kifayətlənməli olduq. Orfoepiyanın morfologiya ilə əlaqəli öyrədilməsi hər bir nitq hissəsi üzrə orfoepik materialı ümumiləşdirir, ondan ən mühüm faktları götürür, sonra isə düşünülmüş şəkildə yüzlərlə sözə tətbiq etmək imkanı yaradır. Məhz buna görə də morfologiya ilə orfoepiyanın əlaqəli öyrədilməsi zəruridir.

Nəticə

- İnteqrativ əsaslarda tədris edilən mövzuların hər biri şagirdlərin ədəbi tələffüz normalarına dərindən yiyələnmələrinə şərait yaradır.
- Morfologiyanın tədrisində düzgün tələffüz üzrə aparılan işlər sözlərdə sait, samit və şəkilçi morfemləri əhatə edir.
- Orfoepiyanın morfologiya ilə əlaqəli öyrədilməsi hər bir nitq hissəsi üzrə orfoepik materialı ümumiləşdirir, ondan ən mühüm faktları götürür, sonra isə düşünülmüş şəkildə sözlərə tətbiq etmək imkanı yaradır.
- Morfologiyanın tədrisi orfoepik vərdişlərin formalaşmasında və vərdişə çevirilməsində xüsusi rola malikdir.

Ədəbiyyat

1. Abdullayev, N. (2008). *Orfoqrafiya və orfoepiya təlimi məsələləri.* "ADPU-nun mətbəəsi".
2. *Azərbaycan dili (tədris dili) fənni üzrə dərslik. 6-cı sinif*. (2021). "Şərq-Qərb".
3. Balıyev, N., Balıyev A. (2014). *Azərbaycan dilinin tədrisi metodikası.* "Qismət".
4. Dəmirçizadə, Ə. (2007). *Müasir Azərbaycan dili.* I hissə. "Şərq-Qərb".
5. Hüseynzadə, M. (2007). *Müasir Azərbaycan dili.* Morfologiya. "Şərq-Qərb".
6. Hümmətova, R. (2018). *Qoşma və bağlayıcının tədrisində inteqrasiya.* "Elm və təhsil".
7. Hümmətova, R. (2019). *Ana dili -2 (dərs vəsaiti).* "ADPU-nun mətbəəsi".
8. Xəlilov, B. (2013). *Müasir Azərbaycan dili: fonetika, yazı, əlifba, qrafika, orfoqrafiya, orfoepiya*. "Bakı Çap Evi".
9. Qurbanov, A. (2003). *Müasir Azərbaycan ədəbi dili.* I cild (2 cilddə). "Nurlan".
10. *Yeni orfoepiya normaları.* (2021). Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 iyun 175 nömrəli Qərarı ilə təsdiq edilmişdir.